UOT 338.48

*Aygün Qorxmaz qızı SƏMƏDOVA*
*Azərbaycan Kooperasiya Universiteti, doktorant*

# AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAF MODELİ

***Xülasə***

Məqalədə kənd turizminin inkişaf etdirilməsi əsasında ölkənin regionlarında kənd turizmi potensialının yeni layihəsi təklif edilmiş, kənd turizminin formalaşdırılması məqsədilə xərclərin təxmini smetasının müəyyənləşdirilməsinə baxılmışdır. Kənd turizminin sistemli təşkili prosedurlarının ardıcıllığı göstərilmiş, regionların sosial-ekoloji-iqtisadi inkişafının qiymətləndirilməsinin göstəricilər sistemi verilmişdir. Həmçinin, Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişaf etdirilməsinin yeni modeli təklif edilmişdir.

***Məqsəd -*** iqtisadi rayonlarda kənd turizminin yeni inkişaf modelinin verilməsidir.

***Metodologiya -*** tədqiqat işində sistemli və müqaisəli təhlil metodlarından istifadə edilmişdir.

***Nəticə -*** regionlarda kənd turizmi potensialının layihələndirilməsi və kənd turizminin inkişaf modeli təklif edilmişdir.

***Açar sözlər: kənd əraziləri, turizm, potensial, qiymətləndirilmə, inkişaf, model.***

## *Giriş*

Siyasi və iqtisadi, ekoloji proseslərlə əlaqəli olan dünyada baş verən qlobal dəyişikliklər, elmi-texniki tərəqqinin yüksək inkişaf tempi ölkənin iqtisadi rayonlarının sosial-ekoloji-iqtisadi cəhətdən inkişaf etdirilməsinə yeni yanaşmanı tələb edir. Son dövrlərdə ölkələrin dayanıqlı inkişafa meyilli olması gələcək nəsillər üçün də ətraf mühitin saxlanmasının, eyni zamanda turizm resurslarından səmərəli istifadənin vacibliyi ilə şərtləndirilir [2, s. 144]. Bu baxımdan da, kənd turizminin regionların inkişafında əhəmiyyətli rol oynamasının və regionların inkişafını təmin edən yeni modelin verilməsi xüsusi aktuallıq kəsb edir.

**Kənd turizmi və onun formalaşdırılması**

Azərbaycanda kənd turizminin inkişafı çərçivəsində bizim tərəfimizdən ölkənin iqtisadi rayonlarının kənd turizmi potensialının layihələndirilməsi təklif edilir.

İqtisadi rayonların təbii, mədəni potensialı sağlamlıq, istirahət, təhsil və dini turizm elementlərinin marşrutunun formalaşdırılmasına imkan verir [1, s. 85-91]. Kənd turizminin inkişafından iqtisadi səmərəni hesablamaq məqsədi ilə kənd turizmi ilə məşğul olan təşkilatlar məcburi qaydada qeydiyyatdan keçməlidir ki, onların vergi rejimləri müəyyən edilə bilsin.

Bunun üçün 7 günlük kənd turizmini formalaşdırmaq məqsədi ilə xərclərin təxmini smetası hesablanaraq cədvəl 1-də verilmişdir.

Kənd turizmi məqsədi ilə gələn turistlərə minimum lazım gələn xidmətlər yığımına əsasən gündəlik xərclərin orta qiyməti təxminən 28 manat təşkil edir ki, bu da turistlərin cəlb edilməsi üçün kifayətdir və rəqabət qabiliyyətli turizm məhsulunun formalaşmasına imkan verir. Lakin qeyd etmək lazımdır ki, Azərbaycanda turizm bazarının inkişafına maneçilik göstərən əsas səbəblərdən biri, tədqiqat işində qeyd edildiyi kimi, hava və dəmir yolu nəqliyyatı qiymətinin yüksək olması ilə əlaqəlidir, bu da rayonların nəqliyyat imkanlarını azaldır.

Kənd ərazilərinə gəlmiş turistlərin kənd turizmini daha hərtərəfli öyrənməsi üçün, bizim tərəfimizdən kənd turizminin yerinə yetirilməsi imkanlarına baxılmış və onun təşkili prosedurlarının ardıcıllığı şəkil 1-də göstərilmişdir.

Kənd turizmində təkməqsədli kənd turları tərtib edildikdə onların spesifikliyinə xüsusi diqqət verilməlidir, çünki burada turun davametmə müddəti məqsədlərdən asılı olaraq kifayət qədər uzun müddətli ola bilər. Əsasən təkməqsədli turlara maraq dini təcrübələrin toplanması və xalqların adət-ənənələrini dərindən öyrənmək istəyən şəxslərdə olur, çünki bu tip turistlər məqsədlərinin daha da dərindən idrakına və anlanılmasına xüsusi fikir verirlər.

*Cədvəl 1*

*Xərclərin təxmini smetası*

| S/N | Xərclərin adı | Məbləğ | Cəmi, manat |
|---|---|---|---|
| 1 | Kənd evində yaşamaq | 10-15 man./gün | 70-105 |
| 2 | Üçdəfəlik qidalanma | 12-25 man./gün | 102-175 |
| 3 | Nəqliyyat xərcləri (rayon mərkəzindən kəndin aralıq məsafəsi) | 1-3 manat hər bir nəfərə | 7-21 |
| 4 | Əlavə xidmətlər:<br>• Atla yürüş<br>• Səyahət<br>• Yabanı bitkilərin (qoz,fındıq, alma, armud, yemişan, itburnu və s.) yığımı<br>• Yerli peşələrin öyrənilməsinə cəhddə iştirak (lavaş, qutab, paxlava, bükmə bişirmə,göbələk yığımı və s.)<br>• Ənənəvi yeməklərin hazırlanmasında iştirak<br>• Balıq tutmaq, quş ovlamaq və s. | 1-3<br>1-2<br>1<br>1<br>1<br>1 | 1-3<br>1-2<br>1<br>1<br>1<br>1 |
| 5 | Cəmi | | 185-210 |

*Qeyd: Xərclər smetası Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizmi ilə məşğul olan sakinlərin sorgusu əsasında müəllif tərəfindən tərtib edilmişdir*




***Şəkil 1. Kənd turizminin sistemli təşkili prosedurları.***

*Qeyd: müəllif tərtib etmişdir*

Azərbaycanın iqtisadi rayonlarında kənd turizminin inkişafının koordinasiyası məqsədi ilə bizim tərəfimizdən model təklif edilir ki, burada da kənd turizminin əsas elementlərinin məcmusu əks etdirilir.

Kənd turizminin əsas elementlərini əks etdirən bu modelin birinci pilləsində kənd turizminin inkişafı üçün lazım gələn resurslara uyğun baza elementlərinin formalaşdırılması tədbirləri həyata keçirilir ki, bu da turizm xidmətləri bazarında kənd turizmi məhsullarının rəqabətliliyinin formalaşdırılmasında məqsəd və vəzifələri müəyyənləşdirir.

Sonrakı mərhələ iqtisadi rayonda kənd turizminin inkişaf etdirilməsi proqramının həyata keçirilməsinə məsul şəxslərin müəyyənləşdirilməsi anını özündə əks etdirir ki, burada da əsas məqsəd kənd ərazilərində olan maraqlı adamların proqramın icrasına cəlb edilməsinin təşkili hesab edilir. Bu müddətdə turizm potensialı səviyyəsi ilə turistlərlə işləməyə hazırlıq dərəcəsinin müqayisə edilməsinə, yəni inkişaf imkanlarının və problemli halların müəyyənləşdirilməsinin vacibliyinə baxılmalıdır.

Üçüncü mərhələ kənd əhalisini turizmin inkişafına istiqamətləndirən başlanğıc turların işlənilməsini şərtləndirir. Bu cür proqramlarda yerli ərazilərin qonaqpərvərliyini əhatə edən əsas turizm marşrutları əks etdirilməlidir.

Dördüncü mərhələ kənd turizmi fəaliyyətinin bütün elementlərinin qarşılıqlı əlaqəsini əks etdirməlidir. Bu halda iqtisadi rayonda kənd turizmi subyektləri arasında vəzifə bölgüsü və funksiyalar mütləq müəyyənləşdirilməlidir. Burada əsasən turizmlə məşğul olan əhalinin turistləri qəbul etmək üçün hazırlanmasına fikir verilməlidir.

Beşinci mərhələdə iqtisadi rayonun sosial-ekoloji-iqtisadi vəziyyətinin monitorinqi aparılmalıdır, onun nəticələri kənd turizminin inkişaf etdirilməsinin təsirindən yaranan dəyişiklikləri əks etdirəcəkdir.

Altıncı mərhələdə iqtisadi rayonlarda kənd ərazilərinin saxlanılması və inkişafı məqsədi ilə kənd turizminin gələcək inkişafını təmin edən idarəetmə qərarlarının işlənilməsi və göstəricilərin təhlilinin aparılması təklif edilir.

**Regionların sosial-iqtisadi-ekoloji inkişafının qiymətləndirilməsi göstəriciləri**

Quba-Xaçmaz iqtisadi rayonunun sosial, ekoloji və iqtisadi həyatındakı dəyişikliklərin hərtərəfli öyrənilməsi məqsədi ilə bizim tərəfimizdən kompleks göstəricilər təklif edilir ki, bu da şəkil 2-də əks etdirilir.

Şəkildə qeyd edilən göstəricilərin monitorinqi iqtisadi rayonun yalnız sosial-iqtisadi fəaliyyətinin səmərəliliyini deyil, eyni zamanda əhali üçün ekoloji komfortluğun səviyyəsini və bütünlükdə kənd turizmi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini izləməyə imkan verəcəkdir. Bunların əsasında regionların idarəetmə orqanları respublikanın müəyyən ərazilərində kənd turizminə dəstək və onun inkişafı məqsədi ilə müxtəlif düzəlişlər edə bilər.

Əlverişli ekoloji şəraitdə turistləri qəbul etməyə qadir, inkişaf etmiş kənd ərazilərinə malik olan rəqabətqabiliyyətli kənd turizmi rayonunun yaradılması məqsədi ilə, hesab edirik ki, Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin formalaşdırılması modelinin işlənilməsinə ehtiyac vardır. Əsas məqsəd kənd turizmi sahəsinin rəqabətliliyinin yaradılmasıdır ki, burada da büdcənin gəlir hissəsinin artırılması, kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi, bütünlükdə kənd turizmi sahəsinin inkişafı üçün əlverişli şəraitin yaradılması öncüllük təşkil edir. Həmin istiqamətin realizasiya mexanizmi kənd turizmi fəaliyyəti üçün nisbətən perspektivli rayonun aşkar edilməsi üzrə yuxarıda təklif edilmiş alqoritm əsasında qurulur. Kənd turizmi rayonlarının yaradılması ilə yanaşı bu fəaliyyət sahəsinin sosial-ekoloji-iqtisadi resursları və nəticələri nəzərə alınmalıdır [4, s. 69-82]. Təklif edilən bu çərçivədə Quba-Xaçmaz iqtisadi rayonunun sosial, ekoloji və iqtisadi sferalarının monitorinqi modeli təklif edilmişdir.

Təklif edilən model bir tərəfdən regionun icra orqanları və biznesin, digər tərəfdən isə kənd turizmini təklif etməyə hazır olan kənd əhalisinin inteqrasiyalı qarşılıqlı əlaqəsini göstərir ki, bu da rəqabətqabiliyyətli kənd turizmi məhsulunun yaradılmasına imkan verir. Quba-Xaçmaz iqtisadi rayonunun icraedici orqanları ilə Azərbaycan Dövlət Turizm Agentliyinin qarşılıqlı əlaqəsi kənd

turizmi sferasında vahid informasiya mühitinin yaradılmasına imkan verəcək, yeni kənd turizmi məhsullarının işlənilməsi və realizasiyasında, regional turizm brendinin formalaşmasında iştirak etməyi təmin edəcəkdir.




***Şəkil 2. Kənd ərazilərinin inkişaf etdirilməsinin sosial-ekoloji-iqtisadi qiymətləndirilməsinin göstəricilər sistemi.***

*Qeyd: [3] əsasında müəllif tərtib etmişdir*

**Kənd turizminin inkişaf modeli**

Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişaf etdirilməsi məqsədi ilə bizim tərəfimizdən təklif edilən model şəkil 3-də verilir.

Modeldən göründüyü kimi, kənd turizm rayonları əvvəlcədən kənd turizmi səyahətçilərinin turməhsullar üzrə tələblərini, yəni istirahətlərinin təşkili, turizm xidmətlərinin növünü, gözlənilən turistlərin sayını və s. məlumatları Azərbaycan Dövlət Turizm Agentliyi vasitəsi ilə öyrənə bilər.

Regionlarda turizm müəssisələrinin həyata keçirdiyi turlar iki məqsədli ola bilər:

- çox məqsədli;
- vahid məqsədli.




***Şəkil 3. Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişaf modeli.***

*Qeyd: müəllif tərtib etmişdir.*

Çoxməqsədli kənd turları bilavasitə turizm xidməti zamanı müəyyən biliklərin mənimsənilməsi və əldə edilməsi məqsədi ilə həyata keçirilir.

Vahid məqsədli kənd turları isə turizm xidməti göstərilən zaman müəyyən bilik, bacarıq və vərdişlərin əldə edilməsi ilə yanaşı bu sahədə yeni ixtisasın mənimsənilməsi məqsədi ilə yerinə yetirilir.

Azərbaycan Dövlət Turizm Agentliyi turizm sferasında xidmət göstərən müəssisələr və onların işinə bilavasitə təsir edən qarşılıqlı əlaqəli Nazirliklər, Agentlik və Mərkəzlər vasitəsi ilə bu sahənin əsas məqsədlərini, icra mexanizmlərini düzgün müəyyənləşdirməklə iqtisadi rayonların turizm potensiallarına müvafiq olaraq turların düzgün təşkil edilməsini həyata keçirə bilərlər.

Bu baxımdan da, turizm müəssisələrində turların düzgün təşkil edilməsinin əsas məqsədi iqtisadi rayonun sosial-ekoloji-iqtisadi inkişafının qiymətləndirilməsinin göstəricilər sistemi vasitəsilə kənd ərazilərində turizm xidməti tələbediciləri üçün çoxməqsədli və təkməqsədli turların düzgün təşkilini formalaşdırmaqdan ibarət olmalıdır.

## *Nəticə*

Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişafının təklif edilən modelinin praktiki tətbiqi burada kənd turizminin real sektorunun yaradılmasına imkan verəcəkdir ki, bu da həm dayanıqlı inkişaf şəraitində turizm regionunun inkişafını, həm də onun imicinin təşviqini və formalaşmasını təmin edəcəkdir.

Beləliklə, bu modelin effektivliyi kənd turizminin ninkişafı əsasında regionun kənd ərazilərinin dayanıqlı inkişafı şəraitinin əldə olunması ehtimalını artırır, bu da öz növbəsində iqtisadi rayonun dayanıqlı inkişaf xəttinə girişinin təmin edilməsinə imkan yaradır.

## ƏDƏBİYYAT


1. İsmayılov, V.İ. Azərbaycanda turist-rekreasiya yığınının formalaşmasının aktual problemləri // -Bakı: Əmək və Sosial Münasibətlər, - 2018, -№1, -s. 85-91
2. Əliyeva, N.R. Azərbaycan regionlarında turizmin inkişafı və əhalinin məşğullugunun təmin olunması: iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcə, dis./ - Bakı, -2010.- 144s.
3. Корчагина, Е.В. Методы оценки устойчивого развития региональных социально-экономических систем /-Москва: Проблемы современной экономики,2012. № 1,с.67-71.
4. Pesonen, J.A. Segmentation of rural tourists: Combining push and pull motivations // -Savonlinna: Tourism and Hospitality Management, -2011. Vol. 18, - № 1, - p. 69-82.


*Айгюнь Коркмаз кызы Самедова*
*диссертант АУК*

## Модель развития сельского туризма в Азербайджане

*Резюме*

В статье предлагается новый проект потенциала сельского туризма в регионах страны на основе развития сельского туризма, рассмотрено определение примерной сметы расходов на формирование сельского туризма. Показана последовательность процедур системной организации сельского туризма, приведена система показателей оценки социально-эколого-экономического развития регионов. Также была предложена новая модель развития сельского туризма в Губа-Хачмазском экономическом районе.

***Цель*** - это предоставление новой модели развития туризма в экономических районах.

***Методология -*** в исследовательской работе использованы методы системного и сравнительного анализа.

***Результат -*** предложено проектирование потенциала сельского туризма в регионах и модель развития сельского туризма.

***Ключевые слова: сельские территории, туризм, потенциал, оценка, развитие, модель.***

***Aygun Qorchmaz Samadova***
***candidate for a degree of ACU***

**Development model of rural tourism ın Azerbaijan**

***Summary***

The article proposes a new project of the potential of rural tourism in the regions of the country based on the development of rural tourism, and considers the definition of an approximate cost estimate for the formation of rural tourism. The sequence of procedures for the systematic organization of rural tourism is shown, and the system of indicators for assessing the socio-ecological and economic development of regions is presented. A new model for the development of rural tourism in the Guba-Khachmaz economic region was also proposed.

***Purpose*** - this is the provision of a new model for the development of tourism in economic areas.

***Metodology*** - the research work uses the methods of system and comparative analysis.

***Findings -*** it is proposed to design the potential of rural tourism in the regions and a model for the development of rural tourism.

***Key word: rural areas, tourism, potential, assessment, development, model.***